**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**ZƏHRA RÜSTƏM qızı İSLAMOVA**

# AZƏRBAYCAN TARİXİ XVIII ƏSR DİPLOMATİK MİSSİYALARININ SƏNƏDLƏRİNDƏ

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**BAKI – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **Z.H.BAYRAMOV**

**Rəsmi opponentlər:**

Tarix üzrə elmlər doktoru, professor **A.B.BAXŞƏLİYEV**
Tarix üzrə elmlər doktoru **X.S.QASIMOV**

**Aparıcı müəssisə:** Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci iltarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "__"_______2016-cı il tarixli iclasında, saat "____"-da keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi-23,

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"____________2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XVIII əsr Azərbaycan tarixinin mürəkkəb və ziddiyyətli dövrünü təşkil edir. Bu dövrdə baş vermiş hadisələrin obyektiv şəkildə araşdırılması hal-hazırda Azərbaycan tarix elminin qarşısında duran vacib məsələlərdən biridir. XVIII əsrdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixinin dövrün diplomatik missiyalarının sənədləri əsasında hərtərəfli şəkildə araşdırılması böyük elmi aktuallıq kəsb edir. Çünki bu dövrə aid çoxlu sayda elmi araşdırılmalar aparılsa da, indiyədək tarixşünaslığımızda Azərbaycanın XVIII əsr tarixi diplomatik missiya sənədlərini cəlb etməklə kompleks şəkildə tədqiq olunmamışdır.

Şərqin ən nəhəng dövlətlərindən biri olan Azərbaycan Səfəvi imperatorluğunun zəifləyərək süquta uğraması, Nadir şah Əfşarın qısamüddətli hakimiyyəti və müstəqil dövlət qurumları olan xanlıqların yaranması ilə siyasi dağınıqlığın hökm sürməsi Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında dərin izlər buraxmışdır. Belə mürəkkəb şəraitdə ölkəmizə səfər etmiş xarici dövlətlərin diplomatik elçiliklərinin sənədlərində olan zəngin faktiki materialları öyrənmədən Azərbaycanın XVIII əsr tarixinin bütöv bir mənzərəsini yaratmaq mümkün deyildir.

Diplomatik missiya sənədlərində toplanmış çox zəngin məlumatlar XVIII əsrdə Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf meyllərini, xalqımızın əkinçilik mədəniyyətini, ölkənin suvarma sisteminin vəziyyətini hərtərəfli şəkildə öyrənməyə imkan verir. Mövzunun aktuallığı bir də onunla müəyyən olunur ki, Avropa dövlətlərindən, xüsusilə Rusiyadan ölkəmizə gələn elçi və diplomatların qeyd və gündəliklərini öyrənmədən Azərbaycanda XVIII əsrdə sənətkarlığın əsas sahələrini, daxili və xarici ticarətin inkişaf səviyyəsini, Azərbaycanın mühüm şəhərləri və onların təsərrüfat həyatını dərindən tədqiq etmək mümkün deyildir. Araşdırmaya cəlb etdiyimiz diplomatik missiya gündəlikləri və qeydləri XVIII əsrdə Azərbaycanın siyasi həyatının ümumi mənzərəsini yaratmaqla yanaşı, Səfəvi dövlətinin süqutu, ölkəmizin beynəlxalq rəqabət meydanına çevrilməsi, qonşu dövlətlərin işğalçılıq planları, Nadir xanın Azərbaycan torpaqlarını geri qaytarmaq uğrunda mübarizəsi, xanlıqlar dövründə baş vermiş mühüm siyasi hadisələri təhlil etməklə yanaşı, bir çox hadisə və proseslərin yenidən qiymətləndirilməsinə imkan verir.

Diplomatik missiyaların sənədlərinin təhlili XVIII əsrdə Azərbaycanda mövcud sosial münasibətlərin dərindən öyrənilməsi, əhali və onun etnik

tərkibinin dəqiq şəkildə müəyyən edilməsi, ölkəmizin təhsil sistemi, elm, memarlıq və incəsənət sahələri haqqında olan təsəvvürlərimizi daha da genişləndirir və bir çox yeni xüsusiyyətlərin üzə çıxarılmasına şərait yaradır.

XVIII əsrdə Azərbaycanda olmuş diplomat və elçilərin gündəliklərindəki materialların təhlili Avropa və xüsusilə Rusiya dövlətinin Azərbaycanla bağlı hərbi-siyasi planlarının və əsl məqsədlərinin mahiyyətinin üzə çıxarılaraq düzgün qiymətləndirilməsi üçün də çox əhəmiyyətlidir.

**Dissertasiyanın xronoloji çərçivəsi.** Dissertasiyanın xronoloji çərçivəsi XVIII əsrin əvvəllərindən sonlarına qədərki dövrlə məhdudlaşır. Məhz bu dövrdə Səfəvi imperiyası süqut etmiş, Azərbaycan Əfşarlar dövləti yaranmış, Azərbaycan siyasi parçalanma – xanlıqlar dövrünə qədəm qoymuşdur. XVIII əsrdə Azərbaycanın üzləşdiyi çox mürəkkəb sosial-iqtisadi, siyasi şəraitdə bölgəni öz iqtisadi nüfuz və hərbi-siyasi maraq dairəsinə daxil etmiş Qərbi Avropa dövlətlərindən və Rusiyadan ölkəmizə çoxlu sayda diplomatik missiyalar, elçilər, tacir və səyyahlar göndərilmişdi. Dissertasiyada əsas diqqət XVIII əsrə verilsə də, bəzən müqayisə aparmaq üçün əvvəlki və sonrakı dövrlərə də müraciət edilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Ümumdünya tarixinin xüsusi dövrünü təşkil edən XVIII əsr hadisələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bir-birilə bağlı siyasi proseslər daimi olaraq tədqiqat obyekti kimi tarixçilərdə xüsusi marağa səbəb olmuşdu. Bu əsərlərdən bəzilərinin müəllifləri hətta müəyyən hadisələrin birbaşa iştirakçısı olmuşlar və əsərlərində öz gözləri ilə gördükləri hadisələrə də yer vermişdilər ki, bu da həmin mənbələrin istifadəsini daha da zəruri edir.

1796-cı ildə rus qoşunlarının Qafqaza yürüşündə iştirak etmiş, rus ordusunun zabiti P.Q.Butkovun fakt və materiallarla zəngin olan üç cildlik əsəri XVIII əsr Azərbaycan tarixinin öyrənilməsi çox əhəmiyyətlidir[1].

Tədqiqat zamanı 1796-cı il yürüşünün iştirakçısı olan digər bir rus hərbçisinin S.B.Bronevskinin iki cildlik əsərində[2] Rusiyanın Qafqaz

---

[1] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1830 гг. в 3-х томах.I т. СПб, 1869 с.346; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1830 гг. в 3-х томах. II т. СПб, 1869, 142 с.; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1830 гг. в 3-х томах. III т. СПб, 1869 с.628

[2] Броневский С. Новейшая географические и исторические известия о Кавказа. В 2-х томах. Часть 1. Москва: вь Типографии С.Селивановскаго, 1823. 352 с.; Броневский С. Новейшая географические и исторические известия о Кавказа. В 2-х томах. Часть 2. Москва: вь Типографии С.Селивановскаго, 1823. 465 с.

dövlətləri və Qacarlar ilə diplomatik münasibətləri ilə yanaşı, Azərbaycanın iqtisadi və mədəni həyatı haqqında da qiymətli məlumatlar toplanmışdır. Başqa bir rus müəllifi O.Yevetskinin əsərində də[1] mövzu ilə bağlı qiymətli məlumatlara rast gəlinir.

Azərbaycanın XVIII əsr tarixinin öyrənilməsi sahəsində sovet dövrü tarixşünaslığında Azərbaycanda olmuş əcnəbi səfirlərin, tacir və səyyahların əsərlərindəki materiallar fraqmentlər şəklində elmi ədəbiyyata gətirilmişdir. V.N.Leviatovun əsərində[2]XVIII əsrdə Azərbaycanda baş vermiş üsyanlar, rus və Osmanlı işğalları və digər məsələlərə xüsusi diqqət yetirilmişdir. İ.P.Petruşevskinin çox zəngin qaynaq materialları əsasında yazılmış əsərində[3] XVIII əsrdə Azərbaycanda mövcud olan aqrar münasibətlərə xüsusi diqqət yetirmişdir.

M.R.Arunova və K.Z.Əşrəfyan Nadir şah Əfşarın hərbi-siyasi fəaliyyətinə həsr etdikləri əsərdə[4] dövrün diplomatik missiya nümayəndələrinin hesabatlarından istifadə edilsə də, XVIII əsrin 30-40-cı illərinin siyasi tarixinin bəzi məsələlərinə birtərəfli yanaşılmışdır.

Sovet dövrünün tədqiqatçılarından A.Əbdürrəhmanov, H.B.Abdullayev, H.Dəlili, S.Məmmədov, Ş.Həmidova, S.Aşurbəylinin əsərlərində[5] XVIII

---

[1] Статистическое описание Закавказского края съ присовокуплениемъ статьи: Политическое состояние Закавказского края въ исходъ XVIII века и сравненье онаго съ нынешнимъ. Составилъ Орестъ Евецкийъ в двух частяхъ. Санктпетербургъ. Печатано вь Типографии Штаба Отдельнаго Корпуса Внутренний стражи, 1835, 306 с.

[2] Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку: изд-во АН Азерб.ССР, 1948, 228 с.

[3] Петрушевски И.П. Очерки по истории феодальных отношения в Азербайджане и Армении в XVI начале XIX вв. Ленинград, Издательство ЛГУ, 1949, 379 с.

[4] Арунова М.Ф., Ашрафян К.З. Государство Надир шаха Афшара (очерки общественных отношений в Иране 30-40 годов XVIII века.). Москва, изд-во Вост.лит., 1958, 284 с.

[5] Абдуррахманов А.А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII в. Баку: изд-во АН Азерб.ССР, 1964, 98 с.; Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотнощения его с Россией. Баку: изд-во АН Азерб.ССР, 1965, 621 с.; Абдуллаев Г.Б. Из истории Северо-восточного Азербайджана в 60-80 гг. XVIII веке. Баку: изд-во АН Азерб.ССР, 1958, 211 с.; Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında) Bakı:"Elm"nəşriyyatı,1979, 144s.; Məmmədov S. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Elmi red.: F.M.Əliyev, T.Ə.Bünyadov. Bakı: APİ, 1981, 104 s.; Həmidova Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: Elm, 1985, 116 s.; Həmidova Ş.P. XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Gəncə xanlığı ilə Kartli-Kaxetiya çarlığının münasibətlərinə dair. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1989, №2. s.47-53; Aşurbəyli S.B. Bakı şəhərinin tarixi: orta əsrlər dövrü. Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, 355s; Ашурбейли С.Б. История города Бакы

əsrin siyasi, iqtisadi, sosial-mədəni məsələləri ümumi şəkildə işıqlandırılmışdır. F.M.Əliyevin araşdırmalarında[1] və G.Məmmədovanın tədqiqatlarında[2] XVIII əsrdə Azərbaycanda olan rus konsullarının və səfirlərinin məlumatları əsasında ölkəmizin siyasi, iqtisadi həyatı, V.Zubovun başçılığı ilə rusların Azərbaycana yürüşü ilə bağlı bəzi məsələlər öz əksini tapmışdır.

Böyük sərkərdə Nadir şahla bağlı son zamanlar bir neçə monoqrafiya işıq üzü görmüşdür. Akademik Ramiz Mehdiyevin redaktorluğu ilə 2015-ci ildə işıq üzü görmüş "Nadir şah Əfşar: diplomatik yazışmalar"[3] adlı kitabda tariximizin Nadir şah Əfşar dövrünə aid elmi əhəmiyyətli fikir və materiallar öz əksini tapmışdır. Kitaba akademik R.Mehdiyevin yazdığı geniş həcmli ön söz və Rauf Şeyxzamanovun fars dilindən tərcümə etdiyi məktublar dissertasiya işində elmi istiqamət kimi qəbul edilərək tədqiqata cəlb olunmuşdur. Son illərdə Nadir şahın hərbi siyasi fəaliyyətinə həsr edilmiş kitablardan E.Hüseynovun, M.Süleymanovun və Ə.Tahirzadənin əsərlərində[4] qiymətli materiallar vardır.

XVIII əsrin II yarısında dövlətçilik ənənələrinin bərpası və müstəqil dövlət qurumları olan xanlıqların tarixi ilə bağlı bir sıra əsərlər yazılmışdır. F.Əsədovun[5], M.İsmayılın[6], F.Əliyevin[7], N.Bayramovanın[8],

---

(период средневековья) Баку: Азернешр, 1992, 407 с.; Ашурбейли С.Б. Очерки средневекового Баку. Баку: Элм,1991, 301 с.

[1] Алиев Ф.М. Азербайджано-русские отношения (XV-XIXвв.). Баку: Элм, 1985, 173 с.; Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку: «Элм», 1975, 230 с.; Алиев Ф.М. Миссия посланника Русского государства А.П. Волынского в Азербайджане (1716-1718 гг.). Баку: «Элм», 1979, 120 с.

[2] Мамедова Г.Н. О походе В.Зубова в Азербайджан в 1796 г. Баку: Элм, 2003, 94 с .; Мамедова Г.Н. Русские консулы об Азербайджане (20-60-е годы XVIII века). Баку, Элм, 1989, 128 с.

[3] Nadir şah Əfşar. Diplomatik yazışmalar. Elmi redaktor akademik Ramiz Mehdiyev. Bakı: Şərq- Qərb nəşriyyat evi, 2015, 224 s.

[4] Hüseynov E.İ. Azərbaycan Nadir Şah Əfşarın hakimiyyəti dövründə. Bakı: "Elm", 2013, 224 s.; Süleymanov M.S. Nadir şah. Elmi red. P. Q. Darabadi.Tehran, 2010, 741 s.; Tahirzadə Ə. Nadir şah Əfşar. (Tərcümey-hal oçerki). 2-ci nəşr. Bakı, "Çıraq", 2005, 40 s.

[5] Əsədov F. Dərbənd xanlığı. Bakı: BakıUniversiteti; İqtisad Universiteti, 2004, 94 s.

[6] İsmayıl M. Şəki xanlığı. Bakı: Azərnəşr, 1997, 76 s.

[7] Əliyev F.M. İrəvan xanlığı. Bakı: Azərnəşr, 1997, 224 s.; Əliyev F.M., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 120 s.

[8] Bayramova N. Şamaxı xanlığı. Bakı: Təhsil, 2009, 393s.

Q.Mustafazadə,[1] Z.Hacıyeva[2], E.Babayev[3], M.İskəndərova[4] və digərlərinin adlarını çəkə bilərik. Bu tədqiqat işlərinin hər biri Azərbaycanın xanlıqlar dövrü tarixinin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir.

Y.M.Mahmudov və K.K.Şükürovun dövlətlərarası müqavilələrin (traktat, pakt, konvensiya, protokol) əsas yer tutduğu "Azərbaycan Beynəlxalq Münasibətlər və Diplomatiya tarixi. Dövlətlərarası müqavilələr xarici siyasət aktları (1639-1828)" kitabı 2009-cu ildə işıq üzü görmüşdür. Bu əsərdə müəlliflər özləri də qeyd etdikləri kimi, sənəd və materiallar xronoloji ardıcıllıqla qeyd edilmişdir. Dissertasiya işində dövrün diplomatik nümayəndələrinin hesabatlarındakı mübahisəli məsələlərə aydınlıq gətirmək məqsədilə həmin kitabdakı XVIII əsrə aid sənədlərdən istifadə edilmişdir[5].

XVIII əsrin bir sıra problemlərini tədqiq edən T.Mustafazadə Rusiya dövlətinin işğalçılıq siyasətini, müstəmləkə siyasətinin əsl mahiyyətini açıb göstərməklə yanaşı, Səfəvi sülaləsini bərpa etmək adı ilə başlanan çıxışları "Yalançı şahzadələr" hərəkatı adlandırmaqla dövrü ədəbiyyata yenilik gətirmişdir. T.Mustafazadənin monoqrafiyaları[6] XVIII əsr tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Z.Bayramlı[7], M.Abdullayev[8], R.Hüseynli[1], C.Mustafayev[2], G.Nəcəfli[3] və digərlərinin əsərlərində bəhs edilən dövrün sosial iqtisadi həyatının bir

---

[1] Mustafazadə T.T. Qarabağ xanlığı. Bakı: Sabah, 2010, 328 s.; Mustafazadə T.T. Quba xanlığı. Bakı: Elm, 2005, 480 s.

[2] Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Monoqrafiya. Red.:Y.Mahmudov, T.Mustafazadə. Bakı: Təhsil, 2007, 254 s.

[3] Бабаев Э. Из истории Гянджинского ханства. Баку: Нурлан, 2003, 198 с.

[4] Искендерова М.С. Бакинское ханство. Баку: Чашыоглы, 1999, 212 с.

[5] Mahmudov Y.M. Şükürov K.K. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi. (1639-1828). Dövlətlərarası müqavilələr xarici siyasət aktları. I cild. Bakı: Regionların ictimai inkişaf birliyi,2009, 508 s.

[6] Mustafazadə T.T. XVIII yuzillik-XIX yuzilliyin əvvəllərində Osmanlı- Azərbaycan munasibətləri. Bakı: Elm, 2002, 372 s.; Qarabağ xanlığı. Bakı: Sabah, 2010, 328 s.; Quba xanlığı. Bakı: Elm, 2005, 480 s.; Азербайджан и русско-турецкое отношения в первой трети XVIII в. Баку: Элм, 1993, 240 с.

[7] Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı: "Avropa" nəşriyyatı, 2015, 348s.; II Şah Abbasın daxili və xarici siyasəti (Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsəri üzrə) // Tarix və onun problemləri, 2010, №3, s.12-16

[8] Abdullayev M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Dərs vəsaiti. Bakı: "Adiloğlu" nəşriyyatı, 2005, 232 s.

çox məsələləri öyrənilmişdir. Son illərin tədqiqatlarından T.Həsənzadənin 2014-cü ildə işıq üzü görmüş əsərində[4] Əfşarlar və Qacarlar dövrünün görkəmli dövlət xadimləri haqqında maraqlı məlumatlar verilmişdir.

Türk tarixçilərindən İsmayıl Haqqı Uzunçarşılının[5] və İlker Külbilgenin[6] əsərlərində XVIII əsrdə Osmanlı-Səfəvi münasibətlərinə daha çox yer ayrılmışdır.

Dissertasiya işinin tədqiqinə ingilisdilli ədəbiyyatlar da cəlb edilmişdir. Kermanda Britaniya konsulu olan P.A.Sayksın əsərində[7] Azərbaycan tarixi ilə bağlı hadisələrə qismən toxunulmuşdur. Digər bir ingilisdilli ədəbiyyat Kembric universitetinin professoru L.Lokkarta məxsusdur. "Səfəvilər sülaləsinin tənəzzülü və İranın əfqan istilası"[8] adlı monoqrafiyası XVII əsrin sonu – XVIII əsrin əvvəllərinin siyasi və iqtisadi məsələlərini əhatə edir. Müəllifin tədqiq etdiyimiz mövzu ilə bağlı "Nadir şah" adlı əsəri qərb və şərq mənbələrindən əldə edilmiş çox zəngin materialların təhlili əsasında yazılmış sanballı monoqrafiyadır.

Tədqiq etdiyimiz mövzuya aid ingilisdilli ədəbiyyatlar içərisində "Kembricin İran tarixi" adlı çoxcildli əsər[9] xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın XVIII əsrdə sosial-iqtisadi və mədəni-mənəvi həyatı haqqında kitabın VI və VII cildlərində verilən məlumatlardan araşdırma zamanı istifadə olunmuşdur.

---

[1] Hüseynli R.S. Azərbaycan ruhaniliyi (Xanlıqlar çağından sovet işğalınadək olan dövrdə). Bakı: Kür, 2002, 266 s.

[2] Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.

[3] Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövlətilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı). Bakı, "Nurlan", 2002, 132 s.; XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nurlan, 2007, 248 s.

[4] Həsənzadə T.D. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Bakı: "Elm və təhsil", 2014, 294 s.

[5] Uzunçarşılı İ.H. Osmanlı tarihi. IV c. I bölüm. Ankara, Türk tarih kurumu basımevi, 1988, dördüncü baskı, 687 s.

[6] İlker Külbilge "18. Yüzyılın ilk yarısında Osmanlı-İran siyasi ilişkileri (1703-1747). Doktora tezi, İzmir, 2010, 419 s.

[7] Sykes P.M. A History of Persia. In two volums. Vol.II. London, St. Martin's street, 1921, pp. 568

[8] Lockhart L. The fall of Safavids Dinasty and the Afqan Occupation of Persia. Cambridge,1958, pp. 583

[9] The Cambridge history of İran. vol.VI. Cambridge University Press. 1986; The Cambridge history of Iran. vol. VII, Cambridge University Press, 1993, pp.1036

**Tədqiqatın mənbə bazası.** Azərbaycanın XVIII əsr tarixinin öyrənilməsində yerli mənbələrlə yanaşı, diplomatik missiya və kəşfiyyat ekspedisiya nümayəndələrinin hesabatları, tacir, səyyah və missioner gündəlikləri böyük əhəmiyyət kəsb edir.

XVIII əsr Azərbaycan tarixinin dərindən öyrənilməsində, müəyyən boşluqlarının doldurulmasında, "ağ səhifələr"in yazılmasında qeyd edilən məlumatların mühüm əhəmiyyəti vardır. Səyahətnamələrdə, xüsusi təlimatlar əsasında yazılmış hesabatlarda XVIII əsrdə Azərbaycanın sosial-iqtisadi həyatı, siyasi durumu və onun mədəniyyətinə aid olduqca qiymətli, elmi əhəmiyyətli faktlar, materiallar mövcuddur. Azərbaycan ərazisinə gələn xüsusi tapşırıqlar üzrə elçilər, tacirlər, kəşfiyyatçılar gündəliklərində öz dövlətlərinin Şərq dövlətləri, xüsusilə Azərbaycanla qarşılıqlı siyasi münasibətlərinə də açıqlama gətirmiş, həm də təmsil etdikləri dövlətlərin siyasi maraqlarını lazımi şəkildə təmsil etməyə çalışmışdılar. Ancaq onların əsərlərində bəzən təhriflərə yol verilmiş, tək-tək hallarda rast gəlinən hadisələr bütün ölkəyə şamil edilmişdir. Onların gündəliklərində dövlət nümayəndələri, o cümlədən sadə adamlardan eşitdikləri də öz əksini tapmışdır ki, bütün bu məsələlər tədqiqat zamanı dəqiqləşdirilmiş və digər ədəbiyyatlardan əldə edilmiş faktlarla müqayisəli təhlil edilmişdir.

XVIII əsrin əvvəllərində beynəlxalq çəkişmə meydanına çevrilən Azərbaycanın sosial-iqtisadi həyatı və hərbi-siyasi durumunun öyrənilməsində 1716-1718-ci illərdə Səfəvi məmləkətində 23 ay olmuş Rusiya elçisi Artemi Volınskinin gündəliyi çox böyük elmi əhəmiyyət kəsb edir. Onun gündəliyində I Pyotrun yazdığı təlimata uyğun olaraq Dərbənddən İsfahana qədər ölkə ərazisindəki dağlar, onların aşırımları, Xəzər dənizinə tökülən çayların gəmi hərəkəti üçün yararlılığı, şəhər və qalalar, hərbi istehkamlar, qızılbaş ordusunun döyüş texnikası, Səfəvi imperiyası daxilindəki xristian xalqları və onların Rusiyaya münasibəti, Səfəvi imperiyasının iqtisadi, siyasi durumuna aid müfəssəl məlumatlar əks olunmuşdur. Onun jurnalından bəzi hissələr 1929-cu ildə Y.Zevakin tərəfindən çap edilmiş, sonralar P.P.Buşev və F.M.Əliyev tərəfindən xüsusi tədqiqat obyekti kimi dərindən öyrənilmiş və nəşr edilmişdir[1].

---

[1] Зевакин Е.С. Азербайджан в начале XVIII века.// Труды Общества по обследованию и изучению Азербайджана, №8, вып. 4. Баку, 1929 Журнал посланника Волынского 1715-1718 гг., с.31; Бушев П.П. Посольства Артемия Волынского в Иран в 1715-1718 гг. (по русским архивам). Москва, Наука, 1978, 288 с.; Алиев Ф.М. Миссия посланника Русского государства А.П. Волынского в Азербайджане (1716-1718 гг.). Баку: «Элм», 1979, 120 с.

1718-1725-ci illərdə Azərbaycan ərazisindən keçib gedərək Xivə və Buxarada səfir kimi fəaliyyət göstərən Florio Beneveninin Peterburqa göndərdiyi məktublar Azərbaycan tarixinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Səfir Şirvanda baş verən siyasi hadisələri müşahidə edərək bu barədə I Pyotr hökumətinə məlumatlar çatdırmış, Səfəvilər əleyhinə üsyanlar, Hacı Davud üsyanı barədə, Şirvan əyalətinin iqtisadi durumu haqqında geniş məlumatlar vermişdir. Ona verilən təlimata əsasən o, olduğu şəhər, kənd, yaşayış yerlərinin mövqelərini, böyük və kiçik çayları, limanları bacardığı qədər öz gözü ilə görərək gündəliyə qeyd etməli idi[1].

Şah II Təhmasibin (1722-1732) yanında Rusiya dövlətinin nümayəndəsi olmuş Semyon Avramovun “Qeydlər”i[2] Səfəvi dövlətinin hərbi-siyasi durumunun öyrənilməsi baxımından çox mühüm əhəmiyyətə malikdir. O, öz gündəliyində əfqanlar tərəfindən torpaqlarımızın işğalı, bu dövrdə Astrabad hakimi olmuş Fətəli xan Qacarın fəaliyyəti, münasibətləri, ümumən qacarların hakimiyyət uğrunda mübarizəsi, Nadir xan Əfşarın tarix səhnəsinə çıxması, Səfəvi dövlətinin son dövrü haqqında dəyərli məlumatlar verilmişdir.

I Pyotrun Xəzərsahili vilayətlərə yürüşünün iştirakçısı olan digər bir hərbiçi İ.Q.Gerber olmuşdur. O, Azərbaycanın təsviri zamanı bölgələrin ərazisi, təbiəti, əhalisi, əhalinin məşğuliyyəti, siyasi və iqtisadi münasibətlər, ticarət yolları, hətta adət-ənənələrlə bağlı dəyərli məlumatlar verilmişdir[3].

XVIII əsrin 30-40-cı illərində Səfəvi imperiyasının beynəlxalq rəqabət meydanına çevrilməsi, imperiyanın əhatə etdiyi ölkələrin florası, təbii sərvətləri, etnoqrafiyası, arxeoloji abidələri, sosial münasibətləri İ.Lerxin gündəliyində ətraflı şəkildə öz əksini tapmışdır[4].

---

[1] Посланник Петра I на Востоке. Посольство Флорио Беневени в Персию и Бухару в 1718 - 1725 годах. Москва: Главная редакция восточной литературы издательства "Наука", 1986, 158 с. səh.20-21

[2] Абрамов С. Дневная записка бывшего в Персии у Шаха Тахмаспба Российского секретаря Семена Аврамова. // www.vostlit.info

[3] Гербер И.Г. Описание стран и народов вдоль западного берега Каспийского моря 1728 г. //История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва: Издательство восточной литературы,1958. с.60-119

[4] Лерх Иоган Якоб. Извлечения из дневника путешествия И.Я.Лерха (путешествие). НАИИ НАНА, инв.487. Сведения о втором путешествие в Персию, современном в 1745-1747 гг. Перевод Абезгуз. НАИИ НАНА, инв.490

Çar I Pyotrun Azərbaycana göndərdiyi şəxslər arasında donanma zabiti F.İ.Soymonovun da adını çəkmək olar. E.Qarayev tərəfindən çap etdirilən bu mənbəni[1] qiymətli edən səyyahın öz gözləri ilə gördüklərini qeyd etməsidir.

1768-1774-cü illərdə Peterburq Elmlər Akademiyası II Yekaterinanın buyruğu əsasında təşkil olunan ekspedisiyalar olduqları ölkələrin faydalı qazıntı yataqlarını, əkinçilik təsərrüfatını, ticarət üçün nə dərəcədə yararlılığını, əhalisinin etnik tərkibini, etnoqrafiyasını tədqiq edib ətraflı hesabat hazırlamalı idilər. Ekspedisiya rəhbərləri olan S.Q.Qmelin Xəzər sahillərinə dair, xanlıqlar dövründə Azərbaycanın təbii sərvətləri, zəfəran, pambıq əkini, süni suvarma və s. haqqında maraqlı məlumatlar toplamışdı[2]. İ.A.Qildenştedt isə Kartli, Kaxetiya, Osetiya ilə yanaşı, Dərbənd, Qazax və Azərbaycanın şimal-qərbi haqqında material toplamalı idi. Tədqiqat zamanı İ.A.Qildenştedtin əsərinin rus dilində 2002-ci il çapından[3] istifadə etmişik.

1796-cı ildə V.Zubovun yürüşündə iştirak etmiş alman mənşəli Fyodor Kondratoviç Marşal fon Biberşteynin (1768-1826) hesabatında Kürə qədər ərazilər, xüsusilə Şirvanın təsərrüfat həyatı ilə bağlı məlumatlar üstünlük təşkil edir. O, Şamaxı xanlığında pambıqçılıq, Bakıda zəfəran əkini və istehsalı, xanlıqlararası ticarət əlaqələrindən və s. bəhs etmiş, bu sahələrin inkişafına mane olan səbəbləri izah etməyə cəhd göstərmişdir[4]. Krım xanları nəslindən olan Stepan Daniloviç Burnaşovun (1743-1824) əsərində[5]

---

1 Qarayev E.T. F.İ.Soymonovun "Xəzər dənizinini və orada həyata keçirilən Rusiya işğallarının, imperator böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri" adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: ADPU, 2006, 141 s.

2 Гмелин С.Г. Путешествие по России для исследования всех трех царствь в природе, ч.III. СПб., Иждивением Императорской Академии Наукъ, 1785, 737 с.

3 Гильденштедт И.А. Путешествие по Кавказу в 1770-1773 гг. Перевод Т.К.Шафрановский, Спб: Петербургское Востоковедение, 2002, 512 с.

4 Биберштейн М. Описание провинций, расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. НАИИ НАН Аз., 466, л. 56.; A General, historical, and topographical description of Mount Caucasus. With a Catalogue of Plants midigenous to the Country. In II volums. Translated from the works of Dr. Reineggs and Marshal Bieberstein, by C. Wilkinson. With a map and plates. Vol. I. London: 1807, pp. 407; A General, historical, and topographical description of Mount Caucasus. With a Catalogue of Plants midigenous to the Country. In II volums. Translated from the works of Dr. Reineggs and Marshal Bieberstein, by C. Wilkinson. With a map and plates. Vol. II. London: 1807, pp. 341

5 Бурнашов С.Д. Описание областей Адербижанских в Персии и их политического состояния. Курск, 1793, 27 с.

bir sıra xanlıqlar, onların siyasi və iqtisadi vəziyyəti, coğrafi mövqeyi haqqında məlumatlar toplanmışdır.

Valerian Aleksandroviç Zubovun əsəri[1] Rusiyanın 1796-cı il yürüşü barədə tam təsəvvür yaradır. Eyni zamanda burada Azərbaycanın siyasi, iqtisadi və sosial məsələləri haqqında toplanmış məlumatlar XVIII əsrin son illərinin siyasi və iqtisadi məsələləri ilə bağlı ziddiyyətli fikirlərin açıqlanmasına imkan yaradır.

Dissertasiyanın mənbə bazasında dövrün Qərb ədəbiyyatları xüsusi əhəmiyyət kəsb edir. XVIII əsr Azərbaycan tarixinin bəzi problemlərinin tədqiqi zamanı Y.T.Kruşinskinin əsəri[2] müstəsna əhəmiyyətə malikdir. 1708-1726-cı illərdə İsfahanda yaşayan müəllif dövlətin əfqanlar tərəfindən işğalı, Səfəvilərin süqutu, əfqan idarəçiliyi və s. məsələləri öz əsərində işıqlandırmışdı.

İngiltərənin Rusiyadakı ingilis ticarət şirkətinin nümayəndəsi Conas Hanvey 1743-1744-cü illərdə Azərbaycanda olmuş, o, öz əsərində[3] Xəzər dənizində ingilis ticarətini təsvir etmiş, İsfahana əfqan yürüşü və bu dövrdə qonşu ölkələrdə hərbi-siyasi vəziyyət haqqında ətraflı məlumatlar vermişdir.

Qərbi Avropa səfirlərindən fransız Cin Otter (1707-1748) məşhur Osmanlı kartoqrafı İbrahim Mütəfərriqənin vasitəçiliyi ilə Bağdad əmiri Əhməd paşa ilə tanış olub, onun köməyi ilə 1737-ci ildə Azərbaycan və Əfşarlarla ticarət əlaqəsi yaratmaq üçün İsfahana gəlmişdi. Onun əsərində Nadir şahın həyat və fəaliyyəti, Hindistana hərbi səfəri, Osmanlı dövləti ilə münasibətlərinə dair zəngin materiallar vardır.

XVIII əsr hadisələrinin araşdırılması zamanı yeni bir mənbə əldə edilmişdir ki, onun Azərbaycana dair hissələri xüsusi əhəmiyyət kəsb edir. Paris Elmlər Akademiyasının üzvü, fransız botaniki Jozef Pitton de Turnefortun (1656 -1708) Şərq səyahətinə dair əsərində[4] müəllif 1700-

---

[1] Зубов П. Картина Кавказского края, принадлежащего России и сопредельных оному земель в историческом статистическом отношении. Ч I-III. СПб., 1834-1835

[2] Kruşinski Y.T. Xristian səyyahın tarixi. Farscadan tərcümə edən Ş.Fərzəliyev. Bakı: Azərnəşr,1993,105 s.

[3] Hanway Jonas. A Historical Account of British Trade over the Caspian Sea, with a Journal of Travels from London throught Russia into Persia; and back again through Russia, Germany and Holland. London: Mr. Waugh, in Lombard-street and Mr. Willock, in Cornhill, 1753, pp. 301

[4] M. Pitton de Tournefort. Relation d'un Voyage du Levant, fait par ordre du Roi Contenent. L'Histoire Ancienne & Moderne de plusieurs Mes de l'Archipel, de Constantinople, des Côtes de la Mer Noire, de l'Arménie, de la Géorgie, des Frontières de Perse & de l'Asie

1702-ci illərdə olduğu Yunanıstan, Arxipelaq adaları, İstanbul, Qara dəniz sahilləri, Azərbaycan, Gürcüstan, Persia sərhədləri, Kiçik Asiya, o cümlədən İrəvan, Tiflis, Sınıqkörpü, Qazax, Ağrıdağ, Araz çayı bölgələrinin təbiəti, etnoqrafiyası, əhalisi, iqtisadiyyatı, təsərrüfatı və abidələri haqqında qiymətli məlumatlar vermişdir.

Tədqiqat zamanı yerli mənbələrə də müraciət olunmuş və müqayisələr aparılmışdır. A.Berjenin redaktorluğu altında Tiflisdə nəşr olunan 12 cildlik sənədlər toplusunun ilk cildləri[1] XVIII əsrin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Alban katolikosu Yesai Həsən Cəlalyanın əsərində[2] Səfəvilər dövlətinin tənəzzülü dövründə ölkənin iqtisadi həyatı, əhalinin siyahıya alınması, onun nəticələri, yerlərdə siyahıyaalmanın həyata keçirilməsi prosesi, vergi yığanlara olan münasibət və ümumilikdə iqtisadi tarixi məsələlərdən bəhs edilir.

1706-1764-cü illərin siyasi hadisələri öz əksini Molla Məhəmməd əl-Carinin əsərində əsasən siyasi məsələlər, Nadir şaha qarşı baş verən üsyanlar və həmçinin iqtisadi məsələlərlə bağlı maraqlı məlumatlar verilmişdir. Abram Yerevantsinin əsərində[3] isə Şah Sultan Hüseynin əsir düşməsi, əfqanlar və osmanlılarla olan münasibətlər, həmçinin Nadir xanın dövrü, Muğan qurultayının təsviri və Nadirin şah elan edilməsi əks olunmuşdur.

Artemi Boqdanov Araratskinin (1774-?) əsərində[4] XVIII əsrin son qərinəsinə dair hadisələr, xanlıqlar dövrü tarixi, Azərbaycanın ayrı-ayrı şəhərləri ilə bağlı məlumatlar, rusların Azərbaycana 1796-cı il yürüşü və

---

Mineure. T.I, Amsterdam, Aux dépens de la Compagnie, 1717, pp. 188.; M. Pitton de Tournefort. Relation d'un Voyage du Levant, fait par ordre du Roi Contenent. L'Histoire Ancienne & Moderne de plusieurs Mes de l'Archipel, de Constantinople, des Côtes de la Mer Noire, de l'Arménie, de la Géorgie, des Frontières de Perse & de l'Asie Mineure. T.II, Amsterdam, Aux dépens de la Compagnie, 1717, pp. 208.

1 Акты, собранные Кавказской Археографическою Комиссею. Архив Главного Управления Наместника Кавказского. В XII томах. Т. I, под ред. А.Берже. Тифлис: Типография Главного Управления Наместника Кавказского. 1866, 816 с.; Акты, собранные Кавказской Археографическою Комиссею. Архив Главного Управления Наместника Кавказского. В XII томах. Т. II, под ред. А.Берже. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1868, 1238 с.

2 Есаи Хасан-Джалалян. Краткая история страны Албанской (1702-1722). Баку: “Элм”, 1989, 48 с.

3 Абраам Ереванци. История войн 1721-1736 гг. Ереван: Арморана, 1939, 93с.

4 Жизнь Артемия Араратского. Издание подготовиль К.Н.Григорьян при участии Р.Р.Орбели.1981, 224 с.

digər məsələlər öz əksini tapmışdır. Q.A.Ezovun əsərində[1] isə ermənilərin Rusiya ilə əlaqələri, I Pyotrun mənfur düşmənlərimizə olan xüsusi münasibəti, onların xeyrinə bir sıra fərman və sərəncamları əks olunmuşdur.

Dissertasiya işinin araşdırılmasında XIX əsrdə yazılmış Azərbaycan xanlıqlar dövrü tarixinə aid yerli mənbələr Kərim ağa Şəkixanovun və Hacı Seyid Əbdülhəmidin[2], o cümlədən İsgəndər bəy Hacınskinin əsəri[3], eyni zamanda Qarabağ tarixinə dair bir sıra müəlliflərin salnamələrinin cəmləşdiyi "Qarabağnamələr"[4] mühüm əhəmiyyət kəsb etmişdir. Bu əsərlərin XIX əsrdə yazılmasına baxmayaraq, xanlıqlar dövrünün siyasi-iqtisadi məsələlərinin, digər xanlıqlarla olan münasibətlərin öyrənilməsi baxımından mühüm əhəmiyyəti vardır.

XVIII əsr tarixinin ayrı-ayrı məsələlərinin işıqlandırlmasında Abbasqulu ağa Bakıxanovun əsərinin[5] sonuncu hissəsində Səfəvilər dövləti, Nadir şah hakimiyyəti və 1813-cü ilədək olan hadisələr öz əksini tapmışdır. Rusiya hökumət nümayəndəsi kimi Abbasqulu ağa Bakıxanov bəzi hadisələrə səthi yanaşmağa məcbur olsa da, o dövrün siyasi məsələlərinə aydınlıq gətirməyə çalışmışdır. Əsərdə Rusiyanın Xəzərsahili vilayətlərinə yürüşləri, Osmanlı ilə Rusiya arasındakı münasibətlər, Səfəvi imperiyası daxilində baş verən üsyanların səbəbləri, Nadir şah və dövrün digər tarixi şəxsiyyətləri haqqında geniş məlumatlar verilmişdir.

XVII əsrin sonu-XVIII əsrin I yarısında Azərbaycan tarixinin öyrənilməsində ən dəyərli farsdilli mənbələrdən Mirzə Məhəmməd Mehdi xan Astrabadinin[6] və Məhəmməd Kazımın əsərlərində[7] Nadir şahın hərbi-siyasi uğurlarından bəhs edir, Nadirin Mərkəzi Asiya, Dağıstan hərbi

---

1 Эзов Г.А. Сношения Петра Великаго с армянским народом. Спб., 1898 // www.vostlit.info

2 Kərim ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi; Hacı Seyid Əbdülhəmid Şəki xanları və onların nəsilləri. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1993, 32 s.

3 İsgəndər bəy Hacınski. Qubalı Fətəli xanın həyatı. Bakı: AzSSR EA nəşriyyatı, 1959, 36 s.

4 Qarabağnamələr. I kitab. Bakı: Şərq-Qərb, 2006, 216 s.; Qarabağnamələr. II kitab. Bakı: Şərq-Qərb, 2006, 288 s.; Qarabağnamələr. III kitab. Bakı:Şərq-Qərb, 2006, 248 s.

5 Bakıxanov A. Gülüstan-i İrəm. Bakı: Elm,1991, 256 s.; Бакиханов А.К. Гюлистани-Ирам. Редакция, комментарии, примечания и указатели академика АН АзССР З.М.Буниятова. Баку: Издательство «Элм», 1991, 304 с.

6 . میرزا مهدی استرآبادی. تاریخ جهانگشای نادری. تصحیح: میترا مهرابادی، تهران: <نیا کتاب>، ۱۳۹۰، ۵۱۳ ص.

7 . محمدکاظم مروی. عالم آرای نادری، بتصحیح و با مقدمه توضیحات، حواشی فهرستهای محمدامین ریاحی، ج ۱، ۲، ۳ ،۱۲۹۵، ۱۳۲۴ص.

yürüşləri, Osmanlı dövləti ilə döyüşləri, Azərbaycan, İran, Mərkəzi Asiyanın hərbi-siyasi tarixi və sosial-iqtisadi həyatı haqqında olduqca qiymətli yeni materiallar vardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında əsas məqsəd XVIII əsrdə Azərbaycanda olmuş diplomatik missiya sənədlərindəki materialları tədqiqata cəlb edərək Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatını kompleks şəkildə araşdırmaqdan ibarətdir. Bu zaman XVIII əsrdə Azərbaycanda baş vermiş hadisə və proseslər haqqında daha düzgün təsəvvür yaratmaq və müqayisələr aparmaq üçün bir çox yerli mənbələr və elmi ədəbiyyatlar tədqiqat işinə cəlb olunmuşdur.

Qarşıya qoyulan məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur: XVIII əsrdə Azərbaycanda olmuş diplomatik elçilərin, səyyah və tacirlərin yol qeydləri və gündəliklərini təhlil edərək həmin sənədlərin Azərbaycan tarixinin öyrənilməsində yeri və rolunu müəyyənləşdirmək; diplomatik missiya sənədləri əsasında XVIII əsrdə Azərbaycan iqtisadiyyatının əsas sahələri olan kənd təsərrüfatı, sənətkarlıq, daxili və xarici ticarət və şəhər həyatının başlıca məsələlərini tədqiq etmək; diplomatik nümayəndə və elçiliklərin materiallarının təhlili əsasında bütövlükdə Azərbaycanın XVIII əsr siyasi tarixinin başlıca problemlərini təhlil etmək; Səfəvi dövlətinin tənəzzülü ilə ölkəmizin rəqabət meydanına çevrilməsi və onun səbəblərini öyrənmək; Nadir şah Əfşarın hakimiyyətə gəlişindən sonra XVIII əsrin 30-40-cı illərində Azərbaycanın siyası həyatında baş vermiş dəyişiklikləri təhlil etmək; xanlıqlar dövründə Azərbaycanda gedən siyasi prosesləri təhlil etmək; diplomatik missiya sənədləri əsasında XVIII əsrdə Azərbaycanda mövcud olan sosial münasibətləri, əhalinin sayı və onun etnik tərkibini tədqiq etmək; XVIII əsrdə Azərbaycanın mədəni həyatında baş vermiş dəyişiklikləri təhlil etmək və s.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiyanın metodoloji əsası ümumi elmi metodlar olan sintez, analizlə yanaşı, tarixi müqayisə, cədvəllərin tərtibi, sistemli və kompleks yanaşma kimi metodlardan ibarətdir. Burada araşdırılan mənbələrə tənqidi yanaşma və qiymətləndirmə, eyni zamanda mənbələrdəki mövcud faktların dürüstlüyünü üzə çıxarmaq üçün qarşılıqlı müqayisəli təhlil və ümumiləşdirmədən istifadə edilmişdir. Hər hansı bir hadisəyə qiymət verilərkən əvvəlki və sonrakı dövrə aid məlumatlar öyrənilərək, müqayisələr aparılmış, müsbət-mənfi cəhətlər müəyyənləşdirilmiş və dissertasiyada işıqlandırılmışdır. Bütün bunları

nəzərə alaraq dissertasiya işinin tədqiqi zamanı müqayisələr aparmaq üçün son illərdə nəşr edilmiş tədqiqat işlərindən də geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində tarixşünaslığımızda ilk dəfə olaraq Azərbaycanın XVIII əsr tarixi diplomatik missiyalarının sənədləri əsasında ilk dəfə olaraq kompleks şəkildə araşdırılmışdır: Diplomatik missiya sənədlərində XVIII əsrdə Azərbaycan iqtisadiyyatının kənd təsərrüfatı, sənətkarlıq, daxili və xarici ticarət, şəhərlər və şəhər həyatı kimi çox mühüm məsələləri haqqında diplomatik missiya sənədlərində olan yeni fakt və məlumatlar üzə çıxarılaraq təhlil edilmişdir; Fransa dövlət nümayəndələri Cin Otter və Jozef Pitton de Turnefortun səyahətnamələri tarixşünaslığımızda ilk dəfə olaraq tədqiqata cəlb edilərək, Azərbaycanın daxili və xarici ticarəti və şəhər həyatı ilə bağlı yeni fakt və məlumatlar üzə çıxarılmışdır; XVIII əsrdə Azərbaycanın siyasi tarixinin başlıca problemləri diplomatik missiya sənədləri əsasında təhlil olunmuşdur; XVIII əsrdə Azərbaycanda mövcud sosial münasibətlər öyrənilmiş, əhalinin sayı və etnik tərkibi müəyyənləşdirilmişdir; rus diplomatı İ.Qildenştedtin Azərbaycanın Qazax, Şəmşəddil, Borçalı və Lori bölgələrinin əhalisi və onun etnik tərkibi haqqındakı qeydləri tarixşünaslıqda ilk dəfə olaraq təhlil edilmişdir; XVIII əsrdə Azərbaycanın sosial-iqtisadi və siyasi həyatı ilə bağlı problemlərin araşdırılması zamanı ingilis diplomatları C.Hanvey və J.Ferriyerin əsərlərinin tərcümə variantı yox, orijinalından istifadə olunmuşdur; Səyyah gündəlikləri əsasında XVIII əsrdə Azərbaycanın mədəni həyatının bir sıra yeni xüsusiyyətləri üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada əldə edilmiş elmi nəticələrin və ümumiləşdirmələrin, o cümlədən elmi yenilik baxımından nəzəri və praktiki əhəmiyyəti vardı. Tədqiqat işində verilmiş materiallardan yeni tədqiqat işlərində, Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərdə, dərs vəsaitlərində və ali məktəb mühazirə kurslarında istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Tarix fakültəsinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın elmi nəticələri və məzmunu müəllifin xaricdə və Azərbaycanın nüfuzlu elmi jurnallarında çap olunmuş məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, on yarımfəsli əhatə edən üç fəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə XVIII əsrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni tarixinin dövrün diplomatik missiyalarının sənədləri əsasında hərtərəfli şəkildə araşdırılmasının aktuallığı əsaslandırılır, xronoloji çərçivəsi müəyyənləşdirilir, problemə elmi yanaşılaraq onun öyrənilmə səviyyəsi müəyyən edilir, mənbə bazası göstərilir, onun məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti açıqlanır.

Dissertasiyanın I fəsli **"Azərbaycanın iqtisadi həyatı XVIII əsrin diplomatik missiyalarının sənədlərində"** adlanır və dörd yarımfəsildən ibarətdir. **"Kənd təsərrüfatı"** adlı birinci yarımfəsildə XVIII əsr diplomatik missiya, səyyah, tacir və Azərbaycana gəlmiş elm adamlarının gündəlikləri, qeydləri və sənədləri əsasında Azərbaycanın kənd təsərrüfatının ümumi vəziyyəti, ayrı-ayrı sahələrinin inkişaf meylləri, xalqımızın əkinçilik mədəniyyəti, ölkənin suvarma sisteminin vəziyyəti hərtərəfli öyrənilərək, müqayisəli şəkildə təhlil edilmişdir. Bu sənədlərə görə Səfəvilərin "taxıl anbarı" adlandırılan Azərbaycanın əksər bölgələrində taxıl istehsal edilir və əhalinin əsas taxıl məhsullarına olan tələbatı tamamilə ödənilirdi. Şirvanın ayrı-ayrı bölgələrində taxıl ilə yanaşı, pambıq və düyü də yetişdirilirdi[1]. O.Yevetski Kür və Araz çayları arasındakı bölgədə bol çəltik yetişdirildiyini qeyd etmişdi[2]. Azərbaycanın İrəvan bölgəsi isə taxıl, pambıq və düyü istehsalına görə Ərzrumdan sonra ikinci yerdə idi[3]. Gündəliklərdə Azərbaycanın Şirvan, Arran və Gilan kimi üç zəngin ipəkçilik bölgəsi xüsusilə qeyd edilmişdir. Bakı və Abşeron ilə yanaşı, Dərbənd bölgəsində çox qiymətli bitki olan zəfəran yetişdirilirdi. Zəfəran daxili tələbatı ödəməklə yanaşı, xarici ölkələrə də ixrac olunurdu. Azərbaycanın Dərbənd, Quba və İrəvan bölgəsində geniş yayılmış qızılboya istehsalı da ixracyönümlü idi. Azərbaycan qızılboyasının böyük

---

[1] История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва: Издательство восточной литературы, 1958, 367 с. Səh.12

[2] Статистическое описание Закавказского края съ присовокуплениемъ статьи: Политическое состояние Закавказского края въ исходъ XVIII века и сравненье онаго съ нынешнимъ. Составилъ Орестъ Евецкийъ в двух частяхъ. Санктпетербургъ. Печатано вь Типографии Штаба Отдельнаго Корпуса Внутренний стражи, 1835, 306 с. Səh.93

[3] M. Pitton de Tournefort. Relation d'un Voyage du Levant, fait par ordre du Roi Contenent. L'Histoire Ancienne & Moderne de plusieurs Mes de l'Archipel, de Constantinople, des Côtes de la Mer Noire, de l'Arménie, de la Géorgie, des Frontières de Perse & de l'Asie Mineure. T.II, Amsterdam, Aux dépens de la Compagnie, 1717, pp. 208. Səh.141

hissəsinin alıcısı Osmanlı və Rusiya dövlətlərinin olması səyyah gündəlikləri ilə təsdiq olunur. Missiya sənədlərinə əsasən Azərbaycanın Dərbənd, Quba, Şəki, Şamaxı, Gəncə, İrəvan, Naxçıvan bölgələrində bağçılıq, xüsusilə üzümçülük geniş yayılmışdı. Maraqlıdır ki, diplomat və elçilər əsas xammalı üzüm məhsulu olan şərabçılığın vəziyyətinə daha çox diqqət yetirmişdilər. Rus elçiləri İ.Q.Qerber, İ.Q.Qildenştedt və F.F.Simonoviçin Şirvan, Gəncə bölgələri haqqında olan qeydlərində XVIII əsrdə Azərbaycanın süni suvarma sisteminin vəziyyəti normal vəziyyətdə idi. Sənədlərdəki bilgilərə görə XVIII əsrdə Azərbaycanda maldarlıq, xüsusilə atçılıq, balıqçılıq kimi sahələr də inkişaf etmişdi. Salyan balıqçılıq təsərrüfatı xüsusilə seçilirdi.

I fəslin ikinci yarımfəsli **"Sənətkarlıq"** adlanır. Bu yarımfəsildə XVIII əsrdə Azərbaycanda sənətkarlığın bütün sahələri tədqiq olunmuşdu. Sənətkarlığın əsas sahələrindən biri toxuculuq idi. Missiya sənədlərinə görə təkcə Şirvanda 1500-ə yaxın ipək dəzgahı Şabran, Qəbələ və Ağdaşda isə ipək istehsal edən "zavod"lar fəaliyyət göstərirdi. Həmin müəssisələrdə hətta muzdlu əməkdən istifadə edilirdi. XVIII əsrin II yarısında ipək istehsalının tənəzzülü ilə bağlı olaraq Şamaxı hakimi Məhəmməd Səid xan ipək istehsalını bərpa etmək üçün hətta Təbriz şəhərindən 100-ə yaxın usta dəvət etmişdir. Ümumiyyətlə, Şirvanda istehsal olunan parçalar bütün Azərbaycanda ən yaxşı məhsul hesab edilirdi. Sənədlərə görə, Azərbaycanda istehsal olunan pambıq parçalar daxili tələbatı ödəməklə, xarici ölkələrə də ixrac olunurdu. Sənədlərdə Ordubad şəhərində pambıq parça fabriklərinin fəaliyyət göstərməsi qeyd edilmişdir. Bu faktlar bəzi müəlliflərin Azərbaycanda sənətkarlığın ev peşəsi səviyyəsində olması fikirlərini təkzib edir[1]. Azərbaycanın ənənəvi sənətkarlıq sahələrindən biri olan xalçaçılıq sənəti də diplomatların diqqətindən kənarda qalmamışdı. Şuşa, Nuxa, Şamaxı, Quba və Gəncədə sabun və dəri zavodları fəaliyyət göstərirdi. Azərbaycanın Şəki və İrəvan bölgələrində ağacişləmə və şəbəkə sənətkarlığı yüksək səviyyədə idi. Missiya sənədlərinə görə Azərbaycanda XVIII əsrdə odlu silah və barıt istehsalı barədə qiymətli məlumatlara rast gəlinir. Məsələn, Təbriz barıt zavodunda 300 işçi çalışırdı[2]. Şirvanın Lahıc və Buduq kəndlərində soyuq silahlar, tüfəng və tapançalar istehsal olunurdu. Sənədlərdə XVIII əsrdə Azərbaycanda tüfənglə yanaşı, top

---

[1] Броневский С. Новейшая географические и исторические известия о Кавказа. В 2-х томах. Часть 1. Москва: вь Типографии С.Селивановскаго, 1823. 352 с. Səh.52

[2] Мамедова Г.Н. Русские консулы об Азербайджане (20-60-е годы XVIII века). Баку, Элм, 1989, 128 с. Səh.40

istehsalı haqqında qiymətli məlumatlar verilmişdir. Hətta Avropadan toptökən mütəxəssislərin dəvət olunması faktlarına da rast gəlinir[1].

I fəslin üçüncü yarımfəsli **“Daxili və xarici ticarət”** adlanır. Bu yarımfəsildə XVIII əsr ölkəmizin daxili ticarət həyatı və xarici ticarət əlaqələri araşdırılmışdır. Missiya sənədlərinə görə daxili ticarət bazarlarda həyata keçirilirdi. Karvansaralar isə daxili və xarici tacirlərin qonaq evi və pərakəndə satış mərkəzləri kimi fəaliyyət göstərirdi. Sənədlərə görə tək Bakıda 10-dan çox karvansara fəaliyyət göstərirdi. Elçi C.Belə görə, XVIII əsrin 20-ci illərində onun qonaq qaldığı karvansarada 500 nəfərin qaldığını, Korneli de Bruin isə Şamaxıdakı karvansaranın ikinci mərtəbəsində 40 otağın olduğunu qeyd edirlər[2]. Bu dövrdə ticarətdən gələn gəlir xəzinənin əsası gəlir mənbələrindən birini təşkil edirdi. Ölkəyə gələn hər ticarət karvanından rahdari, bazara çıxarılan məhsula görə isə nizam, tərəzi pulu alınırdı. Gündəliklər əsasında Azərbaycan Səfəvi dövlətinin Hollandiya, İngiltərə, Fransa və Rusiya ilə ticarət əlaqələrinə geniş yer verilmişdir. Əsrin ortalarında hollandların tək İran körfəzində ticarət dövriyyəsi 100 min funt sterlinqə çatmışdı. 1708 və 1718-ci illərdə Səfəvi dövləti ilə Fransa arasında bağlanmış ticarət müqavilələri ölkə daxilində Fransanın mövqeyini gücləndirmişdi. Rusiya ilə Səfəvilər arasında bağlanmış Rəşt və Gəncə müqavilələri ilə rus tacirlərinə azad və gömrüksüz ticarət hüququ verilmişdi. Onlar hətta istədikləri yerdə dükan və anbarlar tikə bilərdilər. Nadir şahın dövründə Azərbaycan bazarları uğrunda ingilis-rus rəqabəti xeyli kəskinləşmişdi. Maraqlıdır ki, ingilislərin ticarət imtiyazlarını bərpa edən şəxs dövlətin maraqlarını əsas götürərək əcnəbi ticarət şirkətlərinin nümayəndələrindən hədiyyələr alınmasını qəti surətdə qadağan etmişdi. Missiya sənədlərinə görə Azərbaycanın Şərq ölkələri ilə ticarətində Osmanlı və Hindistan özünəməxsus yer tutur. Osmanlıdan ölkəmizə müxtəlif ipək və pambıq parçalar, metal və şüşə məmulatları gətirilirdi. Osmanlı tacirləri isə Azərbaycandan daha çox xam ipək aparırdılar. Sənədlərdə Osmanlı ilə ticarətdə Səfəvi tacirləri tərəfindən verginin yarısı, avropalıların isə tam şəkildə ödənildiyi qeyd edilmişdir. Rusiya ilə ticarət

---

[1] Мамедова Г.Н. О походе В.Зубова в Азербайджан в 1796 г. Баку: Элм, 2003, 94 с . səh.46

[2] Бель Д. Белевы путешествие через Россия в разных Азиатские земли, а именно: Пекин, Дербенд и Константинополь. (Перевод с французского М.Попов) кн. I-III, СПб, 1776 г. Səh.52; Корнели де Бруин. «Извлечение из путешествия Корнелия де Бруина» (перевод с франц. Абезгуза). НАИИ АН Азерб., инв.480, səh.12

və iqtisadi əlaqələrin genişlənməsi Bakı və Şamaxı şəhərlərinin tranzit ticarətdə əhəmiyyətini artırmışdı.

Fəslin **"Şəhər həyatı"** adlanan sonuncu yarımfəslində XVIII əsrdə Azərbaycanın böyük şəhərlərinin yeri və rolu təhlil olunmuşdur. Missiya sənədlərinə görə Təbriz yenə ölkənin ən böyük şəhəri statusunu saxlamışdı. Səyyah A.Volınski Təbriz şəhərində XVIII əsrin I rübündə 36 minə yaxın evin olduğunu, şəhər də daxil olmaqla Təbriz vilayətindən dövlətin hər il 100 min tümən gəlir götürdüyünü qeyd etmişdir. Təbrizdən sonra sosial iqtisadi əhəmiyyətinə görə ikinci şəhər olan Ərdəbil Səfəvi şahlarının məqbərə və türbələri, çox gözəl bəzədilmiş məscidləri və yüksək səviyyəli məktəbləri ilə də məşhur idi. XVIII əsrin sonunda Şamaxı şəhəri iqtisadi və ticarət baxımından öz üstün mövqeyini qoruyub saxlamışdı. Qeydlərə əsasən qəti söyləmək mümkündür ki, 1734-cü ildə Nadir şah heç də buranı tamamilə dağıtmamış, yalnız qala divarları ziyan görmüşdü[1]. Azərbaycanın digər qədim şəhəri Gəncə haqqında 1703-cü ildə Korneli de Bruinin qeydləri xüsusi maraq doğurur. Holland elçisinin yazdığına görə, Şamaxıdan dörd dəfə böyük olan Gəncə şəhərində evlərin çoxu daşdan olan ikimərtəbəlidir. Şəhərdə gözəl küçələr, bazar və karvansaralar var idi. Hərbi strateji əhəmiyyətli Dərbənd şəhəri isə Azərbaycanın açarı adlandırılmışdır. Bakıya isə əsas liman şəhəri kimi əcnəbi elçilər xüsusi diqqət yetirmişdilər. Gündəliklərdə Bakının yüksək keyfiyyətli ağ və qara neftlə, duz və zəfəranla zəngin olduğu qeyd edilmişdir.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycanın siyasi vəziyyəti"** adlanır və bu fəsildə XVIII əsrdə baş vermiş əsas siyasi hadisələr öz əksini tapmışdı. Fəslin birinci yarımfəslində Səfəvilər dövlətinin süqutu, ölkənin rəqabət meydanına çevrilməsi kimi mühüm məsələlərə diqqət yetirilmişdir. XVII əsrin sonu-XVIII əsrin əvvəllərində Səfəvi dövlətində baş vermiş iqtisadi və siyasi tənəzzül prosesi yeni sənədlər əsasında təhlil olunur. Yeni missiya sənədləri əsasında müəyyən olunmuşdur ki, Səfəvi dövlətinin tənəzzülündə iqtisadi səbəblərlə yanaşı, mərkəzi hakimiyyətin zəifləməsi, saray çəkişmələri mühüm rol oynamışdı. Mərkəzi və yerli idarə orqanları tərəfindən vergilərin artırılması xalqın vəziyyətini ağırlaşdırmış və müxtəlif bölgələrdə üsyan və çıxışlara səbəb olmuşdu. Dövlətimizin zəifləməsi fonunda Rusiya fəallaşmış və bölgədə kəşfiyyat işləri aparmaq üçün

---

[1] Hanway Jonas. A Historical Account of British Trade over the Caspian Sea, with a Journal of Travels from London throught Russia into Persia; and back again through Russia, Germany and Holland. London: Mr. Waugh, in Lombard-street and Mr. Willock, in Cornhill, 1753, pp. 301,səh.333

müxtəlif ekspedisiyalar göndərmişdi. Sənədlərdə Rusiyanın bölgədə hərbi-siyasi maraqları, işğalçılıq planları, Pyotrun Xəzərsahili vilayətlərə yürüşü rus elçi və səfirlərinin I Pyotrun yürüşdən sonrakı dövrdə İsfahan sarayı ilə apardıqları danışıqlar və Rusiya-Osmanlı qarşıdurması ilə bağlı bir çox yeni faktlara rast gəlinmişdir[1].

II fəslin **"XVIII əsrin 30-40-cı illərində siyasi vəziyyət"** adlı ikinci yarımfəsildə əsas diqqət Nadir xanın yüksəlişi, Səfəvi dövlətinin əvvəlki nüfuzunu bərpa etmək və itirilmiş torpaqları geri qaytarmaq uğrunda mübarizəsinə verilmişdir. Missiya sənədlərində Nadirin siyasi yüksəlişinin əsas səbəbləri kimi onun əfqanları ölkədən qovması və osmanlı cəbhəsində qələbələr qazanması, Rusiya ilə apardığı uğurlu danışıqlar göstərilmişdir. Rusiyanın isə Xəzəryanı bölgələrdən "könüllü" çəkilməsinin əsas səbəbi götürülən gəlirin ordunun saxlanması üçün çəkilən böyük xərcləri ödəməməsi ilə bağlı idi. Şah II Təhmasibin Azərbaycan torpaqlarını Osmanlıdan geri almaq üçün atdığı uğursuz addımların fonunda Nadir xan Rus qoşunlarının bölgədən çıxarılması üçün əsas verən Rəşt və Gəncə müqavilələrini bağlamağa müvəffəq olmuşdu. Missiya sənədlərində Nadirin II Təhmasibi taxta salmasına gətirib çıxardan çevrilişin qan tökmədən həyata keçirməsi, Şah III Abbasın taxta çıxarılması və Nadirin sonrakı siyasi addımları haqqında çoxlu sayda yeni və maraqlı faktlar verilmişdir. Sənədlərdə Muğan qurultayı haqqında geniş məlumat verilməsə də, rus və Avropa elçilərinin Nadirin şəxsiyyəti ilə bağlı qeydlərində təzadlı fikirlər yer almışdı. İngilis müəllifi Seyvori yazırdı: "Nadir cüssəli, gözəl görünüşü, gur səsi, hünəri və qətiliyi ilə lider kimi anadan olmuş, döyüş baltası ilə şöhrətə doğru öz yolunu özü açmışdı. Güclü yaddaşa və cəsarətə malik Nadir, özünü taktik bir sərkərdə kimi göstərə bilmişdi"[2]. S.Qmelin isə onu "bir zülmkar" kimi qiymətləndirmişdi[3]. S.Qmelinin bir zülmkar və P.Sayksın "başına Persiya tacı qoyulmuş sərkərdə" kimi adlandırdığı Nadir şahın Əfşarlar adlanan böyük bir imperiya qurması artıq tarixşünaslığımızda elmi əsaslarla təsdiq olunmuşdur. Missiya sənədlərinə əsasən böyük ordunun saxlanması üçün xərclərin günü-gündən artması şəraitində vergi sisteminin ağırlaşmasının nəticəsi kimi mərkəzi

---

[1] Смирнов Н.А. Политика России на Кавказе в XVI-XIX в. Москва: Социально-экономической лит., 1958, 245 с., səh.167

[2] Sykes P.M. A History of Persia. In two volums. Vol.II. London, St. Martin's street, 1921, pp. 568, səh.368

[3] Гмелин С.Г. Путешествие по России для исследования всех трех царствь в природе, ч.III. СПб., Иждивением Императорской Академии Наукъ, 1785, 737 с., səh.173

hakimiyyətə qarşı baş vermiş üsyan və çıxışlar haqqında da qiymətli məlumatlar verilmişdir.

II fəslin **"Xanlıqlar dövründə siyasi vəziyyət"** adlı yarımfəsildə XVIII əsrin II yarısında Azərbaycanın siyasi həyatı ilə bağlı bir çox məsələlər tədqiq edilmişdir. Dövrün missiya sənədlərində Azərbaycan xanlıqlarının yaranması, bəzi xanlıqların birləşdirmə siyasəti, qonşu dövlətlərin Azərbaycanda yaranmış mürəkkəb hərbi-siyasi vəziyyətdən yararlanmaq cəhdləri ilə bağlı məlumatlar yer almışdır. Rusiyanın bölgəyə göndərdiyi müxtəlif ekspedisiyalarda və hərbi yürüşlərdə iştirak edən diplomat və elçilər xüsusilə Quba xanlığına və Qubalı Fətəli xanın birləşdirmə siyasətinə xüsusi diqqət yetirmişdilər. Ekspedisiya rəhbəri İ.A.Qildenştedt Dərbənddən Cənubi Qafqazın cənub ətəklərinə, Alazan və Kaxetiyadan Xəzər dənizinədək olan torpaqların Fətəli xana tabe olmasını, Quba, Bakı, Şirvan, Şamaxı və Salyanadək olan torpaqları onun hakimiyyəti altında olması haqqındakı qeydləri çox maraqlıdır. F.Simonoviç isə Dərbəndin Quba xanına məxsus olmasını qeyd etmişdir. A.Q.Serebrov Qubalı Fətəli xanın birləşdirmə siyasətinə toxunsa da, onun Azərbaycanın cənub torpaqlarını birləşdirərək vahid Azərbaycan dövləti yaratmaq cəhdini səhvən xanın "Persiya" (İran) hakimi olmaq cəhdi kimi qiymətləndirmişdi[1]. Missiya sənədlərində Səfəvi imperiyasını bərpa etmək adı ilə Azərbaycan torpaqlarını işğal etməyə çalışan Kərim xan Zəndin hərbi-siyasi fəaliyyəti, qacarların Azərbaycan və Cənubi Qafqaz uğrunda mübarizəyə qoşulması və onun nəticələri ilə bağlı yeni fakt və məlumatlara rast gəlinmişdir. Bölgəyə daha çox ekspedisiya göndərən Rusiyanın Cənubi Qafqaz ilə bağlı işğalçılıq planları, xanlıqları ələ keçirmək üçün hərbi-siyasi addımları, V.Zubovun və Qacarın Azərbaycana yürüşləri ilə bağlı missiya sənədlərindəki məlumatlar XVIII əsr Azərbaycanın siyasi həyatının daha dolğun mənzərəsini yaratmağa imkan verir.

Dissertasiyanın **"Azərbaycanın sosial və mədəni həyatı"** adlanan üçüncü fəsildə əsas diqqət XVIII əsrdə Azərbaycanda mövcud sosial münasibətlər, əhali və onun etnik tərkibi və mədəni həyatın əsas sahələri missiya sənədləri əsasında araşdırılmışdır. Fəslin birinci yarımfəslində sosial münasibətlər təhlil olunmuş, bu zaman Səfəvilər, əfşarlar və xanlıqlar

---

[1] Серебров А.Г. Историко-этнографическое описание Дагестана 1796 г. // История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва: Издательство Восточной литературы, 1958, с.173-197,səh184; Гильденштедт И.А. Путешествие по Кавказу в 1770-1773 гг. Перевод Т.К.Шафрановский, Спб: Петербургское Востоковедение, 2002, 512 с., səh.257

dövründə ölkənin idarəetmə sistemində mühüm rol oynayan əsas sosial zümrələrə xüsusi diqqət yetirilmişdir. Missiya sənədlərindəki materiallar Səfəvilərin son dövründə geniş səlahiyyətlərə malik olan bəylərbəyilərinin statusunun, dini idarənin başçısı olan sədrin, şəhər hakimləri olan kələntərlərin və asayişə nəzarət edən darğaların vəzifə ierarxiyasındakı yerinin daha dəqiq müəyyən edilməsinə imkan verir. Fransız və rus diplomatların qeydlərinə əsasən əvvəl bəylərbəyilərin, xanlıqlar dövründə isə Şəki və Şamaxı xanlarının sarayında xarici ölkə nümayəndələrinin qarşılanması, onlarla danışıqlar aparılması vəzifəsini eşikağası həyata keçirirdi. Mehmandar isə əcnəbi elçiləri qorumalı, onları mənzil, ərzaq, minik və yük heyvanları ilə təmin etməli idilər. Missiya sənədlərində XVIII əsrdə Azərbaycanda mövcud olan qoşun növləri, hərbi hissələrdə vəzifə ierarxiyası, döyüşçülərin sayı haqqında maraqlı məlumatlara rast gəlinir. Qeydlərə görə Səfəvilərin son dövründə dövlətin ordusu azalmış və zəifləmişdi. Nadir şah Əfşarın hakimiyyəti dövründə isə ordu quruculuğuna xüsusi diqqət yetirilirdi. Xanlıqlar dövründə də hərb sənəti özünün dirçəliş dövrünü yaşayırdı. Sənədlərə görə Azərbaycan xanlarının sayı çox da böyük olmayan qoşun hissələri daha çox piyadalardan ibarət idi. Bu qoşunun əsasını maaflar təşkil edirdi[1]. Azərbaycanda mövcud olan sosial silki quruluşuna aid materiallara görə cəmiyyət hakim, ruhani, əyan və kəndli təbəqələrindən ibarət idi. Vergi verən kəndli zümrəsi əhalinin böyük hissəsini təşkil edirdi. Ali zümrəyə daxil olan xanlar, bəylər və iri ruhanilər daha böyük hüquq və səlahiyyətlərə malik idilər.

Dissertasiyanın III fəslinin **“Əhali və onun etnik tərkibi”** adlı ikinci yarımfəsildə XVIII əsrdə Azərbaycanda əhalisinin say və etnik tərkibi təhlil olunur. Missiya sənədlərində Azərbaycanın ümumi əhalisinin sayı haqqında tam məlumatlara rast gəlinməsə də, bölgələr üzrə əhalinin yerləşməsi, şəhər əhalisi və əhalinin etnik tərkibi haqqında müəyyən məlumatlar verilmişdir. Sənədlərə görə XVIII əsrin I rübündə Təbrizdə 36 min, Şamaxıda isə 12 min ailə yaşayırdı. Yeni Şamaxı şəhərinin əhalisi, Bakı və Dərbənd şəhərlərinin birlikdə olan əhalisindən çox idi. XVIII əsrdə Şirvanda yaşayan köklü əhalinin böyük hissəsini tatarlar (türklər) təşkil edirdi və onlar

[1] Броневский С. Новейшая географические и исторические известия о Кавказа. В 2-х томах. Часть 2. Москва: вь Типографии С.Селивановскаго, 1823. 465 с. səh.392, 441; Статистическое описание Закавказского края съ присовокуплениемъ статьи: Политическое состояние Закавказского края въ исходъ XVIII века и сравненье онаго съ нынешнимъ. Составилъ Орестъ Евецкийъ в двух частяхъ. Санктпетербургъ. Печатано вь Типографии Штаба Отдельнаго Корпуса Внутренний стражи, 1835, 306 с. Səh.35

müsəlman dininin sünni və şiə məzhəbinə etiqad edirdilər. Şirvanda əhalinin etnik tərkibi ilə bağlı müəyyən səhvlərə yol verərək Şamaxı şəhərinin əsas əhalisini “fars” hesab etmişdi[1]. Xanlıqlar dövrünə aid məlumatlarda Şamaxı şəhərində 10 min nəfər əhalinin yaşadığı qeyd olunur. 1796-cı ilin məlumatlarına görə, Bakı xanlığında 1810 həyət (10 min nəfərə yaxın adam) vardı. 1810-cu ildə isə xanlığın ərazisində 3245 ev qeydə alınmışdı və bunun 931-i Bakı şəhərində, 2314-ü isə kəndlərdə yaşayırdı. XVIII əsrin son rübündə Azərbaycanda olmuş rus diplomat və hərbiçiləri rus hərbiçisi Serebrovun qeydinıə əsasən Quba şəhərində 600 evin, 288 kənddə isə 6820 həyətin olduğunu qeyd etmişdir[2]. S.Bronevski isə yazırdı ki, Qubanın əhalisi türkdür və tatar ləhcəsi ilə danışır, müsəlman dininin ömər təriqətinə etiqad edir. Qubanın bəzi kəndlərində tatların və digər etnik qrupların yaşaması haqqında da sənədlərdə[3] məlumatlar verilmişdir. P.Butkov isə Qubada 200 yəhudi evinin yerləşdiyini, öz dillərində danışdığını və dini ibadətləri üçün 4 sinaqoqa malik olmalarını qeyd etmişdir. Missiya sənədlərinə görə, XVIII sonlarında Dərbənd bölgəsinin və Dərbənd şəhərinin əsas əhalisi türklərdən ibarət olub, burada yaşayan 10700 sakinin 9900-ü türk, 500-ü yəhudi, 300-ü isə xristian kimi qeydə alınmışdır. Həmin dövrdə Şəki xanlığında qeydə alınan 18000 evdən 4700 Şəki şəhərində qalan 15300 ev isə 260 kənddə yerləşirdi[4]. Missiya sənədlərində “türk torpağı” kimi verilən İrəvanda və Qarabağda əhalinin çox böyük əksəriyyətinin Azərbaycan türklərindən ibarət olduğu qeyd edilmişdir.

Dissertasiyanın III fəslinin **“Təhsil, elm, memarlıq və incəsənət”** adlı sonuncu yarımfəslində Azərbaycanın mədəni həyatı araşdırılmışdır. Missiya sınıdlırinə görə XVIII əsrdə Azərbaycanda məktəb və mədrəsələr fəaliyyət göstərir. Məktəblərdə riyaziyyat, türk dilinin qrammatikası, fars və ərəb dili öyrədilirdi. Azərbaycanda təhsilin səviyyəsi ilə bağlı Con Belin “məhəmmədi tatarlarını kalmıklarla səhv salmamalıyıq, birincilər daha

---

1 Путешественники об Азербайджане. Под редакцией Э.М.Шахмалиева. т. I, Составиль З.И.Ямпольский. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1961, 425 с. Səh.396

2 Серебров А.Г. Историко-этнографическое описание Дагестана 1796 г. // История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва: Издательство Восточной литературы, 1958, с.173-197, səh.179

3 Броневский С. Новейшая географические и исторические известия о Кавказа. В 2-х томах. Часть 2. Москва: вь Типографии С.Селивановскаго, 1823. 465 с. Səh.182-183

4 Yenə orada, səh.440

maarifli və ziyalıdırlar"[1] fikri çox maraqlıdır. Solovyov isə 1716-ci ilə aid qeydində bir çox xarici ölkələrdən, o cümlədən Rusiyadan Şərq dillərini öyrənmək üçün Azərbaycan Səfəvi dövlətinə göndərildiyini yazmışdır[2]. Bu dövrdə Azərbaycanda elmin tarix, coğrafiya sahələrinə aid əsərlər yazılmışdı. Azərbaycan gələn elçi və diplomatların qeydlərində Dərbəndin qala divarları, giriş qapıları, Dərbənd şəhərinin quruluşu, memarlıq abidələri haqqında daha çox məlumatlar verilmişdir. Bakı şəhərinin rus hərbi ekspedisiyaları tərəfindən tərtib olunmuş planları şəhərin əsas giriş-çıxış qapıları, ictimai binaları, meydanları və digər tikililəri haqqında aydın mənzərəsini yaratmışdı. S.Qmelinin qeydlərində Bakının xan sarayı ətraflı şəkildə təsvir olunmuşdur. F.Simonoviçin Quba xanlığına aid qeydlərində əsas diqqət Çıraqqala və Şabran yaşayış məskənlərinə verilmişdir. Gəncə şəhərində isə xarici səyyahları daha çox əzəmətli Cümə məscidi cəlb etmişdi. Missiya sənədlərində Azərbaycan xalqının mərasim və bayramları, adət-ənənələri, məişəti, geyim əşyaları haqqında maraqlı məlumatlara rast gəlinir.

Dissertasiyanın **"Nəticə"** hissəsində araşdırmaya yekun vurulmuş, XVIII əsr diplomatik missiyaların sənədlərində Azərbaycan tarixi ilə bağlı fakt və məlumatlar təhlil edilərək ümumiləşdirilmiş və elmi nəticələr çıxarılmışdır.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. XVII əsrin I rübündə Azərbaycan tarixi rus elçi və diplomatlarının qeydlərində. Tarix və onun problemləri, Bakı, 2012, №4, səh. 22-26
2. Azərbaycan tarixi Volınski elçiliyinin qeydlərində. Tarix və onun problemləri, Bakı, 2013, №2, səh. 407-411
3. Rus diplomatik missiyalarının sənədləri XVIII əsr Azərbaycan iqtisadiyyatı haqqında. Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. 19-20 dekabr 2013-cü il. 2 cilddə. I cild. – Bakı: Mütərcim, 2013, səh. 497-500
4. Azərbaycanda Rusiya-Qacar qarşıdurması. Elmi əsərlər. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycan Tarix Qurumu ictimai birliyi. "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların

[1] Белл Дж. Беллевы путешествия через Россию в разные Азиатские земли // www.vostlit.info
[2] Соловьев С.М. Учебник по русской истории. Москва: Аугсбург, 2001, 249 с., səh.167

nəticələri" mövzusunda beynəlxalq elmi konfransın materialları. Xüsusi buraxılış. 44-45-46-47/2013, səh. 167-172

5. XVIII əsrin I rübündə Azərbaycan tarixi zadəgan A.İ.Lopuxinin qeydlərində. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. №4. 2014, səh. 92-97

6. Сельское хозяйство Азербайджана в XVIII веке в документах дипломатических миссий и путешественников. Научное издание. Сборник научных работ «Гилея: научный вестник». Выпуск 91(12). Киев, 2014, стр. 179-182

7. XVIII əsrin diplomatik missiyaları Dərbənd şəhəri haqqında. Tarix və onun problemləri, Bakı, 2015, №1, səh. 39-43

8. Jozef Pitton de Turnefortun "Səyahətnamə"si XVIII əsr Azərbaycan tarixinə dair mənbə kimi. Tarix və onun problemləri. Bakı, 2015, №4, səh. 383-387

9. Ремесленное производство в Азербайджане в первой половине XVIII века по материалам заметок посланников и дипломатов. Громадська організація «Кіевська наукова суспільнознавча організація». Збірник тез наукових робіт учасників международноі науково-практичноі конференціі «місце суспілних наук у системі сучасного гуманітарного знання XXI століття»,18-19 грудня 2015 р.

10. XVIII əsrdə Azərbaycan şəhərlərinin təsviri diplomatik missiyalarının sənədlərində. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. №4, 2015, səh.145-149

11. Azərbaycan Səfəvi dövlətinin tənəzzülü səbəbləri XVIII əsrin missiya sənədlərində. Pedaqoji Universitetinin xəbərləri, №2. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi. Bakı, ADPU, 2015, səh.140-143

12. Azərbaycanın XVIII əsr tarixinin iqtisadi məsələləri rus hərbiçisi F.F.Simonoviçin "Cənubi Dağıstanın təsviri" adlı mətni üzrə. Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" beynəlxalq elmi konfransın materialları. Bakı, 3-5 may 2016-cı il. II hissə. Bakı: Mütərcim, 2016.- 440 s. səh.17-20

13. XVIII əsr rus mənbələri Azərbaycan memarlığı haqqında. Azərbaycan xalçaları. Elmi-publisistik jurnal,cild 6, №18,2016,s.88-95

**З.Р.Исламова**

# История Азербайджана XVIII века в документах дипломатических миссий

## Резюме

В диссертации осуществлено комплексное исследование истории Азербайджана XVIII века на основе документов дипломатических миссий. Диссертация состоит из введения, трех глав и заключения.

**В введении** обоснована актуальность темы, анализированы связанные с проблемой первоисточники и литература.

**В первой главе** под названием «Экономическая жизнь Азербайджана XVIII века в документах дипломатических миссий» исследованы такие важные отрасли экономики Азербайджана, как сельское хозяйство, ремесло, внутренняя и внешняя торговля, по материалам дневников дипломатов и путешественников, побывавших в Азербайджане в XVIII веке.

**Вторая глава** диссертации называется «Политическая история Азербайджана». В этой главе всесторонне изучены внутри-политическое и международное положение Азербайджана в период поздних Сефевидов, в правление Надир шаха и в период ханств на основе дневников и путевых заметок европейских и русских послов и дипломатов.

**Третья глава** диссертации называется «Социальная и культурная жизнь Азербайджана». В ней раскрываются характерные для Азербайджана XVIII столетия социальные отношения, этнический состав населения и такие важные направления нашей культуры, как образование, наука, искусство и архитектура.

**В заключении** работы представлены основные результаты проделанной научной работы.

**Z.R.Islamova**

# History of Azerbaijan in the XVIII century's documents of the diplomatic missions

## Abstract

This thesis explores the history of Azerbaijan on the basis of the documents of the 18th century's diplomatic missions.

This thesis consists of Introduction, three chapters and conclusion.

**Introduction** covers relevance of the topic, primary sources and secondary literature on the issue.

**Chapter I** "The economic life of Azerbaijan in the documents of the diplomatic missions of the 18th century" analyzes the agriculture, crafts, local and international trade of economic life on the basis of materials in the dairies of travelers and ambassadors.

**The second chapter** is titled "Political life in Azerbaijan." This chapter considers the internal and international situation of Azerbaijan at the end of the Safavid dynasty, as well as in the reign of Nadir Shah and during the khanates in accordance with the data gained from the dairies guides of the European and Russian travelers and ambassadors.

**The third chapter** is titled "Social and cultural life of Azerbaijan." On the basis of the documents of the diplomatic missions this chapter examines social relations of Azerbaijan, the ethnic composition of its population, moreover education, science, art and architecture of Azerbaijani culture of the period.

All results of the research were summarized in **conclusion**.

Əla növ kağız, formatı 60x84 $^{1}/_{16}$

Tirajı 100 nüsxə

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**ЗАХРА РУСТАМ гызы ИСЛАМОВА**

# ИСТОРИЯ АЗЕРБАЙДЖАНА XVIII ВЕКА В ДОКУМЕНТАХ ДИПЛОМАТИЧЕСКИХ МИССИЙ

**Специальность: 5503.02 – Отечественная история**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ –2016**